**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA TÜRK MİFOLOGİYASI

**fənninin**

# P R O Q R A M I

## Magistr hazırlığı üçün

**BAKI -2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA TÜRK MİFOLOGİYASI

**fənninin**

# P R O Q R A M I

## Magistr hazırlığı üçün

***Bakı Dövlət Universitetinin saylı əmri ilə təsdiq edilmişdir.***

**BAKI -2022**

**Tərtib edən: Kəmalə Nurulla qızı Nəcəfova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Redaktor: Ramiz Əskərov**
*filologiya üzrə elmlər doktoru*

**Rəyçilər: Firuzə Ağayeva**
*filologiya üzrə elmlər doktoru, professor*
**Elman Quliyev**
*filologiya üzrə elmlər doktoru, professor*

***© “Bakı Universiteti” nəşriyyatı, 2020***

## Fənnin tədrisinə dair izahat

*Tədris planında fənnə 30 saat mühazirə,*
*30 saat seminar ayrılmışdır*

Bakı Dövlət Universitetində türk xalqları ədəbiyyatı 40 ildən artıqdır ki, tədris olunur. Sovet dönəmində fənnin tədrisi prosesində siyasi-ideoloji aspektlərə daha çox diqqət yetirilidi. Eyni etnik kökdən olan xalqların folklorunun və yazılı ədəbiyyatının mənimsədilməsində bəzi təbliğati məsələlər ön plana çəkilirdi; birincisi, etnik təfəkkür hadisələrinin səciyyəvi cəhətləri məqsədli şəkildə təhrif olunurdu, yadlaşdırılmağa cəhdlər göstərilən türk xalqları adına ortaq, qan qohumluğundan irəli gələn hallar mümkün dərəcədə qabardılmırdı.

Azərbaycan müstəqillik qazandıqdan sonra bütün bunlar tədricən aradan qaldırıldı. Hazırda türk xalqları ədəbiyyatı ilk növbədə obyektiv elmi mövqedən öyrənilir, tədris prosesində nəzəri-filoloji araşdırmaların nailiyyətlərindən yararlanmaqla yanaşı, etnik-dini faktor da əsas götürülür. Türk mifologiyası haqqında bakalavr pilləsində icmal daxilində verilən elmi məlumat ali məktəblərin tədrisi prosesində mənimsədilmə baxımından kifayət deyildir. Buna görə də magistr pilləsində türk xalqları ədəbiyyatının əsasını təşkil edən mifologiyanın ayrıca və xüsusi kurs kimi tədrisi gərəkli və aktual məsələdir.

**Fənnin tədrisində məqsəd:** "Türk xalqları ədəbiyyatı" ixtisası üzrə magistr təhsil pilləsində oxuyan tələbələr üçün nəzərdə tutulmuş "Türk xalqları ədəbiyyatı və türk mifologiyası" fənninin tədrisi zamanı türk mifologiyasının müasir mərhələdə (ümumiyyətlə etnosun tədricən xalqlaşması

və millətləşməsi mərhələsindən başlayaraq) ikili xarakterinin: birincisi, etnik vahidliyi qoruyub saxlayan əsas vasitə kimi; ikincisi, təbii şəkildə gedən, bəzən də məqsədyönlü şəkildə aparılan yadlaşdırma prosesini zərərsizləşdirən vasitə kimi və bunların hər ikisinin real həyatda və bədii ədəbiyyatda, təzahürünün öyrənilməsi məqsədi qarşıya qoyulmuşdur.

Magistrlər "Türk xalqları ədəbiyyatı və türk mifologiyası" fənnini öyrənməklə bilməlidir:

a) Türk xalqlarının eyni kökdən törəməsi, buna görə də onların mifologiyasında ortaq düşüncənin, zövqün və dəyərlərin olması;
b) Mifologiyanın hər bir etnosun və millətin yaranmasında, formalaşmasında və inkişafındakı rolu;
c) Türk mifologiyasının dünyadakı mövcud digər etnosların mifologiyası ilə ortaq və fərqli cəhətləri;
d) Mifologiyanın yazılı ədəbiyyatda təzahür formaları.

Magistrlər türk xalqlarının yaddaşlarda, folklor nümunələrində, bədii ədəbiyyatda təzahür edən mifologizmi araşdırmağı bacarmalıdır.

Bədii ədəbiyyatda mifoloji motivlərin ifadəsində müxtəliflik səbəbindən qarşılaşdırma -müqayisəli metodlara yiyələnməlidir.

**Fənnin tədris planındakı yeri:**

"Türk xalqları ədəbiyyatı və türk mifologiyası" fənni 060201-Ədəbiyyatşünaslıq ("Türk xalqları ədəbiyyatı") ixtisaslaşması üzrə tədris olunur. Magistratura üzrə tədris planında ixtisas fənni (İF-M5659) olaraq yer alır.

**Fənnin tədris üsulları:** mühazirə, seminar, fərdi işlər, kollokvium

Fənn proqramı tədris planında nəzərdə tutulan saatlara

uyğun olaraq tərtib edilmişdir.

## Mövzular və onların məzmunu

**1.Türk xalqları ədəbiyyatında mifologiya fənninin tədrisinin məqsəd və vəzifələri.** Fənn haqqında ümumi məlumat. Türk xalqlarının eyni kökdən törəməsi, buna görə də onların mifologiyasında ortaq düşüncənin, zövqün və dəyərlərin olması. Mifologiyanın təsnifatında etnikliyin və milliliyin nəzərə alınmasının qaçılmazlığı. Mifologiyanın hər bir etnosun və millətin yaranmasında, formalaşmasında və inkişafındakı özünəməxsus rolu. Mifologiyanın yazılı ədəbiyyatda təzahür formaları. Türk mifologiyasının dünyadakı mövcud digər etnosların mifologiyası ilə ortaq və fərqli cəhətləri. Etnik mifologiya və dini mifologiya. Onların səciyyəvi cəhətləri.(1), (2), (3).

**2. Mif və mifologiya.** Mif anlayışı. Bu anlayışın mənşəyi, tarixi və müasir məna çalarları. Real həyat və mif. Mifdə reallıq və bədiilik, onların qarşılıqlı əlaqələri. Miflərin inkişafının tarixi mərhələləri. Burada müxtəlif mərhələlərin xüsusi fərqləndirilməsi.

Mifologiya anlayışı. Anlayışın müxtəlif anlamları. Mifologiyada miflər toplusu kimi və mifologiya mifləri öyrənən elm kimi. Elm kimi mifologiyanın ümumi və fərdi cəhətləri, bunların obyektiv və subyektiv səbəbləri. (3), (13), (24).

**3. Dünya mifləri və türk mifologiyası.** Dünyadakı mövcud etnosların hamısının mif yaradıcılığının olması. Bunların oxşar və fərqli cəhətləri. Mifologiyada ortaq cəhətləri kainatın, bəşəriyyətin və insanın ümumiliyinin şərtləndirməsi. Miflərin struktur eyniliyi, mövzu, problem oxşarlığı. Müəyyən istisnalarla (məsələn, ad dəyişməsi və s.)

Türk mifologiyasının dünya mifologiyası ilə ortaq, fərqli və özünəməxsus cəhətləri. Türk etnosunun geniş arealda yayılmasının onların mifologiyasında təzahürü. Türk mifologiyasının bir çox etnosların mifologiyasında olduğu kimi, yaddaşlarda və folklor nümunələrində, bədii ədəbiyyatda yaşaması və müasir mərhələdə bərpa olunmaqla öyrənilməsi. (3), (6), (22).

4. **Türk etnosu və türk mifologiyası.** Mif etnik təfəkkür və düşüncə məhsulu kimi. Bu baxımdan ayrı-ayrı türk xalqlarının mifologiyasından danışmağın mümkünsüzlüyü.

Türk mifologiyasının müasir mərhələdə (ümumiyyətlə etnosun tədricən xalqlaşması və millətləşməsi mərhələsindən başlayaraq) ikili xarakteri: birincisi, etnik vahidliyi qoruyub saxlayan əsas vasitə kimi; ikincisi, təbii şəkildə gedən, bəzən də məqsədyönlü şəkildə aparılan yadlaşdırma prosesini zərərsizləşdirən vasitə kimi. Bunların hər ikisinin real həyatda və bədii ədəbiyyatda, mədəniyyətdə, incəsənətdə təzahürü. (1), (2), (6),(13),(18),(23),(28),(29).

5. **Türk mifologiyasının təməl prinsipləri bədii ədəbiyyatda.** Mifologiyada sistem və təməl prinsiplər anlayışı. Təməl prinsiplərin bir-birləri ilə qarşılıqlı əlaqələri, biri digərini tələb etməsi və tamamlaması. Bütün deyilənlərin türk mifologiyası materialları əsasında izah edilməsi və əsaslandırılması. Məsələn, mədəni qəhrəman, ölüb-dirilmə və ölümün aldadılması motivi mifologiyada və bədii ədəbiyyatda. Türk mifologiyasının təməl prinsiplərinin sırf mifoloji hadisə və ya dini mahiyyət qazanmış hadisə kimi çıxış etməsi. Bütün hallarda onların mifoloji inamın nəticəsi olması. (3), (24).

6. **Yaradılış dastanı və türk mifologiyasının əsas modeli.** Altay yaradılış dastanı mifoloji sistem kimi. Dörd

ünsürün iştirakı və su başlanğıcının aktivliyi. Qaraxan yaradıcı kimi. Onun xaosdan kosmos yaratması və yatratdıqıqlarının hamısının harmonikliyi, nizamlı olması. Yerliyin yaratmaq hikkəsini gerçəkləşdirmək cəhdi, belə bir qüdrətinin olmaması nəticəsində dünyada nizamsızlıq yaratması. Qaraxanın müxtəlif qatlı dünya modelini formalaşdırması.

Qaraxanla müqayisədə Yerliyin xaosun ifadəçisi kimi. Onun fəaliyyətinin antikosmos xarakteri daşıması. Qaraxan və Yerlik qarşıdurmasının fərqli məna çalar qazanması. Altay yaradılış dastanında dünyanın yaradılışı modelinin türk və digər dünya xalqları mifologiyasındakı oxşar modellərlə ortaq cəhətləri. Türk mifoloji sistemində bu modelin dominant rolu.

(1), (2), (3).

**7. Türk mifologiyası və türk dastan ənənəsi.** Mif folklorun müxtəlif janrlarının, o cümlədən dastanların, üsusən də eposların əsas qaynağı kimi. Qəhrəmalıq eposları mif bazasında real həyat kimi yaşanan mif dünyasından sonrakı dünyanın əbədi hadisəsi kimi. Eposların mifologiya ilə daha sıx bağlılığının onun mahiyyətindən, xarakterindən, strukturundan irəli gəlməsi. Eposların ilkin variantlarında mifoloji başlanğıcın üstünlüyü. Tam formalaşmış eposlarda həm miflərdən, həm də eposların ilkin variantlarından irəli gələn mifologizmlər. Mifologiyanın yazılı ədəbiyyata həm də dastan-epos ənənəsindən gəlməsi və s. (1), (2), (3),(11),(13),(20),(29).

**8. Dini etiqad və mifologiya.** Miflə dinin qarşılıqlı əlaqələri, ortaq və fərqli cəhətləri. Dini etiqad mifoloji düşüncədən sonrakı hadisə kimi. Dinin mifologiyadan qaynaqlanmasının səbəbləri. İnkişafın konkret bir mərhələsində dini etiqadın etnik özünəməsusluğun əsas atributlarından birinə çevrilməsi. Müxtəlif etnoslar və eyni dini etiqad. Bu prosesdə

eyni dini imandan məhz etnik varlığın qorunması vasitəsi kimi istifadə olunması.

Türk xalqları ədəbiyyatında mifologiyanın müxtəlif iştirak formaları: etnik mifologiyanın iştirakı, dini mifologiyanın iştirakı, etnik-dini mifologiyanın iştirakı, ortaq (yəni əksər etnoslar üçün səciyyəvi) mifoloji motivlərin iştirakı (3), (11).

**9. Ortaq türk yazılı abidələri və türk mifologiyası.** İslamın qəbulunun bədii yaradıcılıq axtarışlarına təsiri: birincisi, islam müsbət təsiredici faktor kimi. İkincisi, islam dinindən başqa etnosları aşağılamaq üçün istifadə olunması. Bu baxımdan ortaq türk yazılı abidələrində ikinci meylə qarşı mübarizə meylləri.

Y.H.Balasaqunlunun "Qutadqu bilik" əsərində islam mifoloji motivi. M.Kaşğaridə türk mifoloji nümunələri, Ə.Yəsəvi hikmətlərində Qurandan və hədislərdən gələn mifoloji motivlərin sufi ideyaları bədii tərənnüm vasitəsi kimi.(1),(2),(3),(10),(15),(16).

**10. Ə.Nəvai və türk mifoloji inam.** Əlişir Nəvai sənətkar, dövlət xadimi və türkçü kimi. Sənətkar Ə.Nəvainin mütəlif mifoloji motivlərdən istifadə etməsi : a) türk dilində ilk "Xəmsə"də Ə.Firdovsinin və N.Gəncəvinin mifologiyadan yararlanmaq ənənəsinin davamı; b) "Xəmsə"də dünya mifologiyası üçün ortaq motivlərdən, varlıqlarda, qüvvələrdən istifadə; c) "Xəmsə"də türklük və bunun mifoloji qatda ifadəsi.

Ə.Nəvai sufizmi. Onun sufi ideyalarının təbliğində bu fəlsəfi təlimin ilkin qaynaqlarından -Qurandan və hədislərdən yararlanması dini mifologizmin yüksək səviyyəli nümunəsi kimi. Hətta türk mifologiyası üçün də əsas olan anlayış və motivlərin bu və ya digər dərəcədə dini mahiyyətlə

süsləndirilərək verilməsi. (1),(2),(14),(19).

**11. Yeni dövr -XIX əsr və bədii ədəbiyyatda mifoloji motivin təzahür formaları.** Başqa etnosla məcburi ünsiyyət, ən başlıcası isə onların rəhbərliyi altında yaşamaq yeni dövrün bədii ədəbiyyatın öznəməsusluğunu səciyyələndirən əsas şərt kimi. Əvvəlki dövrlərdə din (islam) faktoru digər etnoslarla ünsiyyəti mümkünləşdirən və asanlaşdıran əsas amilə çevrildiyi halda, yeni dövrdə bu faktorun (xristian dini faktorunun) ünsiyyət prosesini çətinləşdirərək tragik və ya komik konflikt yaratması. Bunun dövrün əksər türk yazıçı və şairlərinin bədii əsərlərində mütəlif formalarda əksini tapması (məsələn, M.F.Axundov, A.Kunanbayev, M.Auezov və b.). (3),(4),(5),(7).

**12. XX əsr türk xalqları ədəbiyyatında mifologizm.** XX əsr ədəbiyyatında mifoloji motivli əsərlərin daha çox yaranması.Mifologiyanın etnik çüurun məhsulu kimi milli düşüncənin, həyat tərzinin, psixologiyanın və s. ilkin qaynağı olması. Bədii ədəbiyyatda mifoloji motiv və milli ideallar probleminin ifadəsində müxtəliflik.

Sovet dönəmində əsas məqsədin sovet insanı yaratmaq olması və bütün ideoloji-təbliğat gücünün bu məqsədin gerçəkləşdirilməsinə sərf edilməsi. Mifik inamla bağlı mərasimlərin, adət-ənənələrin, bayramların və s. təsviri kökdən uzaqlaşmanın qarşısının alınmasına cəhd kimi (M.Auezov, A.Qədiri, N.Sarıxanov və s.).

XXəsrin ikinci yarısında sovet ədəbiyyatında yumşalma, insana və onun mənəvi aləminə, hiss və duyğularının ifadəsinə marağın artması. Mifologizm psixoloji təhlil vasitəsi kimi. Ç.Aytmatovun, O.Süleymenovun əsərlərində mifologizmdən səmərəli şəkildə yararlanma. (2),(3),(26),(27).

**13. Ç.Aytmatovun povestlərində mifologizm.**

Ç.Aytmatovun "Ağ gəmi", "Dəniz kənarı ilə qaçan alabaş", "Çingiz xanın ağ buludu" kimi povestlərdə mifologiyadan məqsədli şəkildə istifadə olunması. "Ağ gəmi"də Buynuzlu Ana Maral mifi.

"Dəniz kənarı ilə qaçan alabaş" povestində ölüb-dirilmə və ölümün aldadılması motivi. "Çingiz xanın ağ buludu" povestində cəmiyyət və insan münasibətlərinin mifoloji motivlər əsasında ifadəsi. Bütün bunların əsərlərin ideya-məzmun və poetika- sənətkarlıq özünəməxsusluqları ilə sıx bağlılığı (2),(3), (9).

**14. Ç.Aytmatovun romanlarında mifologizm.** Ç.Aytmatovun qələmindən çıxan dörd romanın hamısında – "Gün var əsrə bərabər", "Qiyamət", "Kassandra damğası" "Dağlar çökərkən" ("Əbədi gəlin") əsərlərində mifologiyanın əsas rol oynaması. İlk üç romanın sərlövhəsinin birbaşa mifologiya, o cümlədən dini mifologiya ilə bağlılığı. Manqurt mifi, manqurtçuluq və bunun qiyamətlə bağlılığı.

"Qiyamət" romanında boz qurd mifi. Kökdən uzaqlaşma, dünyanın, yaradanın nizamını insanların pozması. "Kassandra damğası" romanında oxşar modelin iştirakı: gələcəkdəki bəlalardan xəbər vermək və insanların sabahla müqayisədə indi ilə yaşamağa xüsusi meyl göstərmələri. "Əbədi gəlin" romanında insanların kosmosu xaosa çevirən əməlləri norma halına salmaları və bunun gətirəcəyi fəlakətlər (2),(3),(8),(9).

**15. Müasir dövrün ədəbi prosesi və mifologizm.** Müasir dövrün ədəbi həyatının spesifik inkişaf meylləri. Söz azadlığının dünya ədəbi təcrübəsindəki mövcud cərəyanlara kütləvi maraq oyatması. Mifologiyadan istifadənin ənənəvi yolları və vasitələri. Milli ideologiyanın tam formalaşmasının

ədəbi axtarışlara təsiri. İtirilən və itirilməkdə olan milli-mənəvi dəyərlərin və etnik-milli öznəməxsusluqların yarada biləcəyi faciənin ədəbiyyatda əksi. Qərb həyat tərzinə aludəçiliyin kökdən uzaqlaşma, ümumiyyətlə yadlaşma prosesinin göstəricisi kimi bədii ədəbiyyatın diqqət yetirdiyi problemə çevrilməsi (2),(3).

## Sərbəst iş mövzuları:

1. Türk mifologiyasının dünya mifologiyası ilə oxşar və fərqli cəhətləri
2. Türk mifologiyasında kult
3. Qədim türk dastanları
4. Orta əsr türk dastanlarında mifologizm
5. Mifolofiya və islami dəyərlər
6. Y.Balasaqunlunun "Qutadqu-bilik" əsərində mifologizm
7. M.Kaşğarinin "Divani-lüğətit-türk" əsərində mifoloji mətnlər
8. Ə.Nəvainin əsərlərində mifologiya
9. Ç.Aytmatovun "Ağ gəmi", "Dəniz kənarıyla qaçan alabaş" povestlərində mifologizm
10. Ç.Aytmatovun "Gün var əsrə bərabər", "Qiyamət" romanlarında mifologizm

## Saatların mövzular üzrə paylanması:

| № | Mövzular | Cəmi | Mühazirə | Seminar |
|---|---|---|---|---|
| 1 | Türk xalqları ədəbiyyatında mifologiya fənninin tədrisinin məqsəd və vəzifələri | 4 | 2 | 2 |
| 2 | Mif və mifologiya | 4 | 2 | 2 |
| 3 | Dünya mifləri və türk mifologiyası | 4 | 2 | 2 |
| 4 | Türk etnosu və türk mifologiyası | 4 | 2 | 2 |
| 5 | Türk mifologiyasının təməl prinsipləri bədii ədəbiyyatda | 4 | 2 | 2 |
| 6 | Yaradılış dastanı və türk mifologiyasının əsas modeli | 4 | 2 | 2 |
| 7 | Türk mifologiyası və türk dastan ənənəsi | 4 | 2 | 2 |
| 8 | Dini etiqad və mifologiya | 4 | 2 | 2 |
| 9 | Ortaq türk yazılı abidələri və türk mifologiyası | 4 | 2 | 2 |
| 10 | Ə.Nəvai və türk mifoloji inam | 4 | 2 | 2 |
| 11 | Yeni dövr -XIX əsr və bədii ədəbiyyatda mifoloji motivin təzahür formaları | 4 | 2 | 2 |
| 12 | XX əsr türk xalqları ədəbiyyatında mifologizm | 4 | 2 | 2 |
| 13 | Ç.Aytmatovun povestlərində mifologizm | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 14 | Ç.Aytmatovun romanlarında mifologizm | 4 | 2 | 2 |
| 15 | Müasir dövrün ədəbi prosesi və mifologizm | 4 | 2 | 2 |
| | Yekun | 60 | 30 | 30 |

## ƏSAS ƏDƏBİYYAT:

1. Xəlilov P. Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 432s.
2. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Apoctoroff, 2017, 632s.
3. Məmmədov A. Türk mifologiyası və türk xalqları ədəbiyyatı. Bakı: Nurlan, 2011, 38s.

## Əlavə ədəbiyyat:

4. Abay. Bakı: Mütərcim, 2017, 252s.
5. Ağayeva F. Abay: şəxsiyyəti və ədəbi irsi. Bakı: Elm, 2010, 176 s.
6. Ağbaba A. Cümənov D. Azərbaycan mifologiyası. Sumqayıt: SDU, 2018, 182s.
7. Auezov M. Abay. /Tərcümə edən: Ə.Abbasov/. Bakı: Azərnəşr, 1954, 746s.
8. Aytmatov Ç. Qiyamət. Bakı: Yazıçı, 1991, 360s.
9. Aytmatov Ç. Seçilmiş əsərləri: 2 cilddə. Bakı: Öndər, 2004
10. Balasaqunlu Y.X.Qutadqu bilik. Bakı: Avrasiya Press, 2006, 440s.
11. Bəydili (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi. Bakı: Mütərcim, 2007, 272s.
12. Cəfərov N. Qədim türk ədəbiyyatı. . Bakı: AzAtaM, 2004, 322s.
13. Əliyev R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları. Bakı: Elm, 2014, 332s.
14. Əmrahoğlu A. Türk xalqları ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, 148s.
15. Xəlil A. Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. Bakı: Səda, 2001, 182s.

16. Kaşğari M. Divanü-lüğət-it-türk: 4 cilddə. \tərcümə edən: R.Əskər\. Bakı: Ozan,I c.-2006, 512 s., II c.-2006, 400 s., III c.-2006, 400 s., IV c.-2006, 752 s.
17. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 243s.
18. Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı: Asiya, 2004, 545s.
19. Nəvai Ə. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004, 424 s.
20. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşr., 1993, 92s.
21. Ögəl B. Türk mifologiyası. I cild (tərcümə edən: R.Əskər). Bakı: MBM, 2006, 626s.
22. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326s.
23. Şaman əfsanələri və söyləmələri. Bakı: Yazıçı, 1993,144s.
24. Şükürov A. Mifologiya. 1-ci kitab. Bakı: Elm, 1995, 188s.
25. Şükürov A. Mifologiya. 6-cı kitab. Qədim türk mifologiyası. Bakı: Elm, 1997, 232s.
26. Tukay Q. Samanbazarı, yaxud yeni Kəsikbaş. Bakı: Elm və təhsil, 2011, 152s.
27. Ulutürk X.R. Turan çələngi. Bakı: Qapp-poliqraf, 2005, 873 s.

***Türk dilində***

28. İnan A. Tarihte ve bu gün şamanizm. Ankara, 1954, 229s.
29. Ögel B. Türk mitolojisi: 2 ciltte. Ankara: Türk tarih kurumu basımevi, 1989

30.